QANUN № 01 (375), 2026, s. 16-23 

**Zərbiyeva-Babazadə Fatimə Qədir qızı**,
Milli Aviasiya Akademiyasının Hüquq kafedrasının müəllimi və doktorantı
Ünvan: Bakı şəh., Mərdəkan pr., 30, AZ1045
E-mail: zerbiyeva.fatime@mail.ru

**UOT 342.565.2**
**DOI: https://doi.org/10.30546/2218-9130.041.2026.4003**

# KONSTİTUSİYA MƏHKƏMƏSİNİN QƏRARLARI HÜQUQİ MƏSƏLƏLƏRİN HƏLLİNƏ DAİR MÜASİR YANAŞMANIN MƏNBƏYİ KİMİ

***Açar sözlər:*** *məhkəmə, Konstitusiya Məhkəməsi, islahat, mülki, cinayət.*

***Ключевые слова:*** *суд, Конституционный суд, реформа, гражданский, уголовный.*

***Keywords:*** *court, Constitutional Court, reform, civil, criminal.*

## Giriş

Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin II hissəsinə əsasən, məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi (bundan sonra – Konstitusiya Məhkəməsi), Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının apellyasiya məhkəmələri, Azərbaycan Respublikasının ümumi məhkəmələri və digər ixtisaslaşdırılmış məhkəmələri həyata keçirirlər [1, m.125].

Konstitusiya Məhkəməsi Azərbaycan Respublikasının məhkəmə-hüquq sistemində müstəsna rolu ilə seçilir. Həm Azərbaycan Respublikasının Konstitusiyasını, həm də digər qanunvericilik aktlarını nəzərdən keçirdikdə, bunu aydın şəkildə görmək mümkündür. Belə ki, Əsas Qanunun 130-cu maddəsi Konstitusiya Məhkəməsinin fəaliyyətinin birinci dərəcəli hüquqi əsasını təşkil edir. Burada Konstitusiya Məhkəməsinin fəaliyyətinin əsas istiqamətləri göstərilmişdir. Eyni zamanda, Konstitusiyanı kompleks nəzərdən keçirdikdə, ayrı-ayrı maddələrdə, məsələn, 84, 86, 88, 101, 103, 104, 107 və digərlərində Konstitusiya Məhkəməsinin dövlət idarəçiliyində rolunu görmək mümkündür. Bununla yanaşı, Konstitusiya Məhkəməsinin məhkəmə-hüquq sistemində müstəsna rolu "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsindən də bəlli olur. Belə ki, həmin maddəyə əsasən, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyəti və hakimlərinin statusu "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunur. Göründüyü kimi, qanunverici Konstitusiya Məhkəməsinin xüsusi statusunu nəzərə alaraq onun fəaliyyətini ümumi qanun çərçivəsindən kənarda – xüsusi qanunvericilik aktı ilə tənzimləmişdir [18, m.1].

## Əsas müddəalar

Konstitusiya Məhkəməsinin yaradılması və inkişaf tarixi Azərbaycanın müstəqilliyinin bərpa edilməsindən sonrakı dövrə aiddir. Təbii ki, bu, təsadüfi hal deyildi. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə öz müstəqilliyini bərpa

edən dövlətimizin qarşısında duran ən ümdə vəzifələrdən biri də ali konstitusiya ədalət mühakiməsi orqanın yaradılması idi. Odur ki, 1995-ci il tarixli Azərbaycan Respublikası Konstitusiyası, 1997-ci il 21 oktyabr tarixli "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının ilk Qanunu qəbul edildikdən sonra "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında" 1998-ci il 14 iyul tarixli, 522-IQR nömrəli Milli Məclisin Qərarı ilə Konstitusiya Məhkəməsinin ilk hakimləri təyin edildi [4].

Beləliklə, Konstitusiya Məhkəməsi öz fəaliyyətinə başladı. Həmin ilin iyulun 18-də Ulu Öndər Heydər Əliyev "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyətinin təmin edilməsi haqqında" Fərman imzalamışdır [3].

2003-cü il 23 dekabr tarixində isə hazırda qüvvədə olan yeni redaksiyada "Konstitusiya Məhkəməsi haqqında" Qanun qəbul edilmişdir [17].

Konstitusiya Məhkəməsinin yaradılmasının beşinci ildönümü münasibətilə öz müraciətində Ulu Öndər Heydər Əliyev aşağıdakı sözləri qeyd edib: "Konstitusiya Məhkəməsinin simasında milli dövlətçiliyimizi, Konstitusiyaya əsaslanan hüquq qaydasını, ən əsası isə insan və vətəndaş hüquq və azadlıqlarını həqiqətən müdafiə edən mötəbər təsisata malikik" [2].

Ulu Öndərin öz müraciətində bildirdiyi kimi, Konstitusiyanın aliliyini təmin etmək, hər kəsin əsas hüquq və azadlıqlarını müdafiə etmək kimi vacib bir vəzifənin Konstitusiya Məhkəməsinə həvalə edilməsi, onun necə əhəmiyyətli missiyaya sahiblik etdiyinin təcəssümüdür.

Son illərdə Konstitusiya Məhkəməsi müxtəlif hüquq sahələrində hüquqtətbiqedənlər arasında yaranan fikir ayrılıqları, qanunvericilik normalarının aydınlaşdırılması sahəsində yeni və daha müasir hüquqi yanaşmalar sərgiləyir.

İlk növbədə, onu qeyd edək ki, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununun 1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiyası ilə onun səlahiyyətlərinə aid edilmiş məsələlərə dair ali konstitusiya ədalət mühakiməsi orqanıdır. Qanunun 40-cı maddəsində Konstitusiya Məhkəməsində həyata keçirilən icraatın 2 növü fərqləndirilmişdir [17, m.40]:

1. konstitusiya məhkəmə icraatı;
2. xüsusi konstitusiya icraatı.

Konstitusiya məhkəmə icraatı aşağıdakı növlərdə həyata keçirilir: Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərində, V və VII hissələrində nəzərdə tutulmuş məsələlərin həlli üçün verilmiş sorğular və ya şikayətlər ilə əlaqədar işlərin icraatı və qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələrlə əlaqədar sorğular üzrə işlərin icraatı.

Məsələn, müharibə şəraitində Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddətinin uzadılması ilə əlaqədar işlərin icraatı, Azərbaycan Respublikası Milli Məclisi deputatları seçkilərinin nəticələrinin yoxlanılması və təsdiqi ilə əlaqədar işlərin icraatı, yeni seçilmiş Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasının keçirilməsi vaxtının təyin edilməsi ilə əlaqədar işlərin icraatı, müharibə şəraitində Azərbaycan Respublikası Prezidentinin səlahiyyət müddətinin uzadılması ilə əlaqədar işlərin icraatı, Azərbaycan Respublikası prezidenti seçkilərinin nəticələrinin rəsmi elan edilməsi ilə əlaqədar işlərin icraatı, Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi üçün verilən sorğular və müraciətlər ilə əlaqədar işlərin icraatı, Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklər edilməsi haqqında təkliflərinə dair Konstitusiya Məhkəməsinin rəyinin çıxarılması ilə əlaqədar

işlərin icraatları və s. xüsusi konstitusiya icraatının növlərinə aid edilmişdir.

Konstitusiya Məhkəməsinin konstitusiya məhkəmə icraatı çərçivəsində aşağı qüvvəyə malik olan aktların yuxarı qüvvəyə malik olan aktlara uyğunluğunun müəyyən edilməsi və xüsusi konstitusiya icraatı çərçivəsində Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi sferasındakı fəaliyyətinin qanunvericiliyin inkişafına və hüquq sahələrinin "konstitusiyalaşdırılmasına" təsiri danılmazdır. "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 228.5-ci və Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 30.4-cü maddələrinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2013-cü il 8 oktyabr tarixli Qərarında Plenum qeyd edir ki, məhkəmə təcrübəsində normativ hüquqi aktların müddəaları onların konstitusiya-hüquqi mənasına uyğun tətbiq olunmalıdır [12].

Qeyd edilməlidir ki, məhkəmələrin müraciətləri əsasında Konstitusiya və qanunların rəsmi şərhi ilə bağlı Konstitusiya Məhkəməsi Plenumunun qərarları xüsusi əhəmiyyət daşıyırlar. Konstitusiya Məhkəməsinin belə qərarları bir çox hallarda vahid məhkəmə təcrübəsinin formalaşmasının əsasını təşkil edir. Bu zaman məhkəmə tərəfindən hüquq normaları konstitusion şərhi verilir. Verilən şərh həm sorğu edilən məsələ üzrə, həm də gələcəkdə analoji mübahisələrlə bağlı qəbul ediləcək məhkəmə qərarlarının əsasını təşkil edir. Konstitusiya Məhkəməsinin müvafiq qərarlarının cinayət, mülki, ailə, əmək, inzibati və digər sahələrdə yaranan mübahisələrə tətbiqi, öz növbəsində, həmin hüquq sahəsinin "konstitusiyalaşdırılmasına" gətirib çıxarır.

Konstitusiya məhkəmələrinin qərarlarının təsiri altında qanunvericiliyin konstitusiyalaşdırılması son onilliklərin ən aydın tendensiyalarından biridir. Bu tendensiyalar hüquq sistemindəki əhəmiyyətli problemlər və ya Konstitusiya mübahisələri də daxil olmaqla konstitusiya məhkəmələri tərəfindən baxılan məsələlərin, habelə Konstitusiya məhkəmələrinin qərarlarının xüsusi hüquqi nəticələri ilə əlaqədardır. Dövlətdəki konstitusiya nəzarəti institutunun məqsədinə əsaslanaraq, konstitusiya məhkəmələri bütün səlahiyyətlərini həyata keçirərkən qanunvericiliyin və hüquqtətbiqetmə təcrübəsinin Konstitusiya və hüquqi istiqamətdə inkişaf etməsinə kömək etməyə çalışırlar [5, s. 87].

Bu məqsədə – yəni qanunvericiliyin konstitusiyalaşdırılması üçün məhkəmə bir sıra üsullardan istifadə edir: normativ hüquqi aktların müddəalarının məzmunu izah edir, qanunvericilikdəki boşluqlar və ziddiyyətləri aşkar edir, onların aradan qaldırılması üçün tövsiyələr verir, hüquqi aktların Əsas Qanuna uyğunluq dərəcəsini qiymətləndirərək, öz qərarlarında konkret məsələlərə konkret yanaşmalar formalaşdırmaqla məhkəmələrə praktiki həllər təqdim edir.

Müasir yanaşmalardan danışarkən Konstitusiya Məhkəməsi tərəfindən qanunun və hüququn analogiyasından istifadə ilə bağlı olan mütərəqqi hallara da toxunmağı zəruri bilirik. Belə ki, Məhkəmə bir sıra qərarlarında analogiyanı rəhbər tutaraq müvafiq sorğular əsasında şərhlər vermişdir. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Qanunun 1.0.1-ci maddəsinə əsasən, konkret ictimai münasibətləri tənzimləyən qanunvericilik normaları olmadığına görə həmin ictimai münasibətlərə oxşar ictimai münasibətləri tənzimləyən qanunvericilik normalarının tətbiq edilməsinə qanunun analogiyası, 1.0.2-ci maddəyə əsasən isə yalnız konkret ictimai münasibətləri deyil, həm də oxşar ictimai münasibətləri tənzimləyən qanunvericilik normaları olmadığına görə həmin ictimai münasibətlərə qanunvericiliyin məğzinin, hüququn ümumi prinsiplərinin və ya hüququn konkret sahələrinə aid prinsiplərin tətbiq edilməsinə hüququn analogiyası deyilir. Həmin Qanunun 15.2-ci maddəsinə görə, hüququn analogiyasından və ya qanunun analogiyasından istifadə

olunması haqqında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir [19, m.15]. Qeyd edilənlərlə bağlı Konstitusiya Məhkəməsi Plenumunun bir sıra qərarlarına nəzər salmağı vacib hesab edirik:

Belə ki, **"Azərbaycan Respublikası Mülki Məcəlləsinin 228.5-ci maddəsinə əsasən əmələ gələn istifadə hüququna xitam verilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2016-cı il 29 mart tarixli Qərarında** göstərilir ki, oxşar hüquq norması eyni hüquq institutunda, hüquq yarımsahəsində və sahəsində axtarılmalıdır [13].

Digər bir misal: **"Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I və II hissələri və 62-ci maddəsi baxımından "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 41 və 76-cı maddələrinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 128.1-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2025-ci il 16 may tarixli Qərarında** məhkəmə bu qənaətə gəlir ki, notariuslar tərəfindən verilən icra qeydlərinin mübahisələndirilməsi ilə bağlı müddət nəzərdə tutulmadığından məsələyə qanunun analogiyası üzrə Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 282-ci maddəsində nəzərə tutulmuş 10 günlük müddət tətbiq edilməlidir [9].

"**Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 128.1-ci maddəsinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2016-cı il 2 noyabr tarixli Qərarında** məhkəmə vacib bir prosessual məsləyə aydınlıq gətirərək hüquqtətbiqedənlər üçün vahid yanaşma ifadə etmişdir. Belə ki, İnzibati Xətalar Məcəlləsinin 6.3-cü maddəsi inzibati xətalar qanunvericiliyinin analogiya üzrə tətbiqinə məhdudiyyət qoysa da, bu həmin hüquq sahəsinin maddi hüquq normalarına (məsuliyyəti müəyyən edən normalara) aid olmasına məhkəmə aydınlıq gətirmişdir. Habelə, cinayət-prosessual qanunvericiliyin analogiya üzrə inzibati xəta haqqında iş üzrə icraat prosesində tətbiqinin istisna edilmədiyi birmənalı vurğulanmışdır [8].

Yuxarıda misal kimi gətirilən bir neçə qərardan da göründüyü kimi, məhkəmə qanunvericiliyin konkret maddələrini şərh edərək bəzən onların görünməyən xüsusiyyətlərini sadalayır, bir sahənin normaları ilə digər sahənin normaları arasında funksional əlaqələri aşkarlayır və tətbiq üçün təqdim edir. Bu gün məhkəmələr hüququ tətbiq edərkən qüvvədə olan qanunvericiliklə yanaşı, Konstitusiya Məhkəməsi tərəfindən verilən şərhləri işlərə baxılarkən rəhbər tuturlar. Hüququn təfsiri dedikdə, qanunun düzgün, dəqiq və eyni cür başa düşülməsinə və tətbiqinə, qanunvericinin sözlə ifadə etdiyi mahiyyətin aşkara çıxarılmasına dair fəaliyyət başa düşülür. "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 90.1-ci maddəsinə əsasən, normativ hüquqi aktın məzmununda qeyri-müəyyənliklər və fərqlər, habelə tətbiqi təcrübəsində ziddiyyətlər aşkar edildikdə həmin aktı qəbul etmiş normayaratma orqanı və ya Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi müvafiq normaları rəsmi şərh edir. Yəni, qısacası, hüquqi aktları rəsmi şərh edən dövlət orqanı Konstitusiya Məhkəməsidir. Həmin aktı qəbul etmiş normayaratma orqanı və ya Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi istisna olmaqla digər təşkilatlar, ayrı-ayrı şəxslər tərəfindən verilən şərh qeyri-rəsmi sayılır. Hüquqi akt şərh edildikdə onun normalarının məzmunu izah edilir və dəqiqləşdirilir, onların qanunvericilikdə yeri, habelə ictimai münasibətlərin eyni növü-

nün müxtəlif aspektlərini tənzimləyən digər normalar ilə funksional və başqa əlaqələri müəyyən edilir [19, m. 90].

Konstitusiya Məhkəməsinin qanunvericiliyin inkişafına təsirindən danışarkən, Əsas Qanunun 130-cu maddəsinin X hissəsini də vurğulamağı zəruri bilirik. Fikrimizcə, məhz bu maddə qanunvericiliyin inkişafında, hüquq sistemin təkmilləşməsində Konstitusiya Məhkəməsinin yeri və rolunu ifadə edən önəmli bir müddəadır. Həmin maddəyə əsasən, qanunlar və digər aktlar, yaxud onların ayrı-ayrı müddəaları, Azərbaycan Respublikasının hökumətlərarası müqavilələri Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarında müəyyən edilmiş müddətdə qüvvədən düşür, Azərbaycan Respublikasının dövlətlərarası müqavilələri isə qüvvəyə minmir [1, m. 130].

Konstitusiya Məhkəməsinin çoxsaylı qərarları vardır ki, burada konkret normanın qüvvədən düşməsi göstərilmişdir. Bununla yanaşı bəzi qərarlarda isə hüquqtətbiqetmə zamanı çətinlik yaradan, ziddiyyətli normaların dəyişdirilməsi və ləğv edilməsi ilə bağlı Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyələrə rast gəlinir. Həmin tövsiyələr əsasında son illər ayrı-ayrı qanunvericilik aktlarına dəyişikliklər edilmiş, mövcud ziddiyyətlər aradan qaldırılmışdır. Bir sıra misallara baxaq:

1.**“Azərbaycan Respublikası Konstitusiyasının 63 və 71-ci maddələri baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 312-1-ci maddəsinin şərh edilməsinə dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2025-ci il 18 mart tarixli Qərarında** Plenum Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 312-1-ci maddəsi (nüfuz alveri) ilə publik maraqların qorunduğu nəzərə alınaraq həmin maddədə nəzərdə tutulmuş vəzifəli şəxslərin dairəsinin müəyyənləşdirilməsini (differensasiyası) Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilmişdir [10].

2. **“Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234.4.4 və 236-cı maddələrinin Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 428.10-cu maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2023-cü il 14 iyul tarixli Qərarında** Plenum Azərbaycan Respublikası Konstitusiyasının norma və prinsiplərini nəzərə alaraq Birləşmiş Millətlər Təşkilatının “Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında” 1988-ci il tarixli Konvensiyasının (3-cü maddəsinin 1-ci bəndinin (c) yarımbəndinin (iii) abzasının) tələblərinə riayət edilməklə, narkotik vasitələrin və ya psixotrop maddələrin təşviqinə görə cinayət məsuliyyətinin müəyyən edilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə etmişdir [7].

3.**“Azərbaycan Respublikası Mülki Məcəlləsinin 472.1 və 1306-cı maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2018 il 4 iyun tarixli Qərarında** Plenum Azərbaycan Respublikası Mülki Məcəlləsinin zaminliyə xitam verilməsi hallarını nəzərdə tutan 477-ci maddəsinin həmin Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunan hüquqi mövqelər nəzərə alınmaqla təkmilləşdirilməsini Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə etmişdir [14].

4. **“Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 11.2-ci maddəsinin üçüncü cümləsinin Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsinin III hissəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2024-cü il 1 fevral tarixli Qərarında** Plenum Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 11-ci maddəsinə uşağın valideynlərdən biri ilə saxlanılmasına dair məhkəmə qərarının mövcud olduğu halda, onun həmin valideyn ilə ölkədən getməsi üçün digər

valideynin razılığının tələb olunmamasına dair müddəanın əlavə edilməsini Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə etmişdir [11].

Yuxarıda göstərilmiş misallar üzrə hələ ki qanunvericilikdə dəyişiklik edilməsə də, mərhələli şəkildə bu düzəlişlərin ediləcəyi istisna deyil. Çünki Plenumun öz qərarlarında Milli Məclisə etdiyi tövsiyələr nəticəsində ötən dövrlərdə qanunvericilik aktlarına çoxsaylı dəyişikliklər edilmişdir. Nümunələrə baxaq:

**"Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1246 və 1273-1-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin VII hissəsinə uyğunluğunun yoxlanılmasına dair"** Konstitusiya Məhkəməsi Plenumunun 2023-cü il 26 dekabr tarixli Qərarının qəbulu ilə vərəsəlik hüququ ilə bağlı yaranan mübahisələrin həllində yeni mərhələ başlayır. Həmin Qərarla Mülki Məcəllənin vərəsəlik hüququ üçün xüsusi qəbul şərtini və müddətini müəyyən edən 1246 və 1273-1-ci maddələri mütənasiblik konstitusiya prinsipinə və Konstitusiyanın 29-cu maddəsinin VII hissəsində təsbit olunmuş vərəsəlik hüququnun təminatına və həmin Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə uyğun olmadığından qüvvədən düşmüş hesab edilir və Mülki Məcəllənin mirasın qəbulu institutunun tələblərindən irəli gələn hüquqi tənzimləmələrin həmin Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelər nəzərə alınmaqla təkmilləşdirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilir. Müvafiq tövsiyələr əsasında vərəsəlik hüququnu tənzimləyən normalar təkmilləşdirilmiş, yeni tənzimləmələr bərqərar olmuşdur [15]. Belə ki, **Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Notariat haqqında" və "İcra haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə** 2025-ci il 21 iyun tarixli 216-VIIQD nömrəli Qanunla mirasın qəbulu və ondan imtina məsələləri daha dəqiqlə tənzimlənmiş, notariusların bu sahədəki vəzifələri konkretləşdirilmiş, Mülki Məcəllədə vərəsəlik hüququ sahəsində mövcud olan normalararası uyğunsuzluqlar aradan qaldırılmışdır [16].

Digər bir misal: **"Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 237-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" Konstitusiya Məhkəməsi Plenumunun 2013-cü il 25 fevral tarixli Qərarında** Plenum qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkilərin şəxsi istehlak və ya satış məqsədindən asılı olmayaraq toplanmasını nəzərdə tutan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 237.1-ci maddəsinin dispozisiyasının həmin Qərarda əks olunmuş hüquqi mövqelərə uyğun təkmilləşdirilməsini Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə etmişdi. Həmin tövsiyəyə uyğun olaraq 26 aprel 2022-ci il tarixli 516-VIQD nömrəli Qanunla Cinayət Məcəlləsinin 237.1-ci maddəsinin dispozisiyasında dəyişiklik edilərək yetişdirmə və ya onları (onların hissələrini) toplama" sözləri "və ya yetişdirmə" sözləri ilə əvəz edilmiş, həmin Məcəllənin 234.1 və 237.1-ci maddələrinin tətbiqi ilə bağlı təcrübədə yaranmış qeyri-müəyyənlik aradan qaldırılmışdır [6].

**Nəticə**

Göründüyü kimi, Konstitusiya Məhkəməsi konstitusiya nəzarətini həyata keçirir. Qanunvericiliyin Konstitusiyanın müddəalarına uyğunlaşdırılması prosesinin əsas hərəkətverici qüvvəsi Konstitusiya Məhkəməsidir. Konstitusiya Məhkəməsi tərəfindən konstitusiya normalarının tətbiqi vasitəsilə qanunvericiliyin davamlı inkişafının şahidi oluruq.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (26 sentyabr 2016-cı il tarixdə olan əlavə və dəyişikliklər). – Bakı: Hüquq Yayın evi, – 2023. – 64 s.

2. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Konstitusiya Məhkəməsinə müraciəti. 2003-cü il 12 iyul: [Elektron resurs]/URL: https://lib.aliyevheritage.org/az/1143457.html

3. "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublİkası Prezidentinin Fərmanı: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/3101

4. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/15040

5. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 25 illiyinə həsr olunmuş "Konstitusiya normalarının tətbiqi vasitəsilə qanunvericiliyin inkişafı" mövzusunda 4 iyul 2023-ci il tarixində keçirilmiş beynəlxalq konfransın materialları. 2023, 148 səh: [Elektron resurs]/URL: https://constcourt.gov.az/az/bookdetail/6

6. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 237-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" Konstitusiya Məhkəməsi Plenumunun 2013-cü il 25 fevral tarixli Qərarı: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/25497

7. "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234.4.4 və 236-cı maddələrinin Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 428.10-cu maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2023-cü il 14 iyul tarixli Qərarı: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/54634

8. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 128.1-ci maddəsinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2016-cı il 2 noyabr tarixli Qərarı: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/34306

9. "Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I və II hissələri və 62-ci maddəsi baxımından "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 41 və 76-cı maddələrinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 128.1-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2025-ci il 16 may tarixli Qərarı: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/59739

10. "Azərbaycan Respublikası Konstitusiyasının 63 və 71-ci maddələri baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 312-1-ci maddəsinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2025-ci il 18 mart tarixli Qərarı: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/59285

11. "Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 11.2-ci maddəsinin üçüncü cümləsinin Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsinin III hissəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2024-cü il 1 fevral tarixli Qərarı: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/56326m

12. "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 228.5-ci və Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 30.4-cü maddələrinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2013-cü il 8 oktyabr tarixli Qərarı: [Elektron resurs]/URL: https://constcourt.gov.az/az/decision/269

13. "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 228.5-ci maddəsinə əsasən əmələ gələn istifadə hüququna xitam verilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2016-cı il 29 mart tarixli Qərarı: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/32603

14. "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 472.1 və 1306-cı maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2018 il 4 iyun tarixli Qərarı: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/39349

15. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1246 və 1273-1-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin VII hissəsinə uyğunluğunun yoxlanılmasına dair" Konstitusiya Məhkəməsi Plenumunun 2023-cü il 26 dekabr tarixli Qərarı: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/55943

16. Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Notariat haqqında" və "İcra haqqında" Azərbaycan Respublikasının

qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/60111

17. "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/5404

18. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanunu: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/3933

19. "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanunu: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/21300

**Зарбиева-Бабазаде Фатима Гадир гызы,**
преподаватель и докторант юридического факультета
Национальной авиационной академии

## РЕШЕНИЯ КОНСТИТУЦИОННОГО СУДА КАК ИСТОЧНИК СОВРЕМЕННОГО ПОДХОДА К РАЗРЕШЕНИЮ ПРАВОВЫХ ВОПРОСОВ

### РЕЗЮМЕ

В данной статье анализируются решения Конституционного суда, принятые в различных областях права в последние годы. Рассматриваются решения Конституционного суда на фоне судебных реформ, а также их роль и значение в реализации реформ. Делается вывод о том, что решения Конституционного суда занимают важное место в рамках современных реформ с теоретической и практической точек зрения.

**Zarbiyeva-Babazada Fatima Gadir,**
Lecturer and PhD candidate, Department of Law,
National Aviation Academy

## DECISIONS OF THE CONSTITUTIONAL COURT AS A SOURCE OF A MODERN APPROACH TO THE RESOLVING OF LEGAL ISSUES

### SUMMARY

The article analyzes the decisions adopted by the Constitutional Court in various areas of law in recent years. Against the background of judicial and legal reforms, the decisions of the Constitutional Court are studied, as well as their role and significance in the implementation of reforms. It is concluded that the decisions of the Constitutional Court occupy an important place within the framework of modern reforms from a theoretical and practical point of view.

**Redaksiyaya daxilolma tarixi: 22.12.2025**
**Təkrar işlənməyə göndərilmə tarixi: 19.01.2026**
**Çapa qəbul olunma tarixi: 26.01.2026**